III dərəcəli «Vətənə Xidmətə görə» ordenli, ictimai-siyasi xadim, AYB və AJB-nin üzvü, «Qızıl qələm» və H.B.Zərdabi media mükafatçısı Ələşrəf Niftiyevin mətbuatda dərc olunan yazılarını oxuduqdan sonra məndə maraq oyandı ki, bu görkəmli şəxsiyyətin ömür anlarını əks etdirən yazılar hazırlayım. Qəlbimdən keçənləri varağa hopdurub oxuculara təqdim edirəm.

Ələşrəf Niftiyevin ömrü dastanlara dönüb

ÖMÜR SƏHİFƏLƏRİNƏ BİR BAXIŞ

Ələşrəf Niftiyevin bu yaxınlarda «Elm və təhsil» nəşriyyatı tərəfindən çapdan çıxmış «Dastanlara dönəydi hər kəsin ömür yolu» kitabını həvəslə və maraqla oxudum. Sonra bu vaxta kimi müəllifi yalnız barəsində uzaqdan, danışıqlardan və eşitiklərimdən tanısam da, onun Masallıda və digər regionlarda yaxşı tanınan şəxsiyyətlərdən biri, geniş qəlbli və zəngin erudisyalı, sadə, maraqlı həmsöhbət olmasının çoxları tərəfindən qəbul edilməsini dərindən hiss etdim. Ələşrəf Niftiyev kitabda belə bir formulanı açmağa çalışır: kamil şəxsiyyət olmaqdan ötrü təhsil, peşə hazırlığı, istedad və bilik, sağlamlıq və gigiyena-qidalanmaya əməl etmək və idmanla müntəzəm məşğul olmağa alışmaq lazımdır. Bir də ailədən başlanan hər yerdə mədəniyyətin norma və tələblərinə mükəmməl şəkildə yiyələnmədən bu işlərin qeyri-mümkünlüyünü yazıçı dönə-dönə qeyd edir. Bu üç-dörd şərtin izahından tanınmış publisist həmin sahələrdə oxuculara Masallıdan olan şəxsiyyətləri bir daha xatırladır və gənc nəsli onları yaxından tanımağa və belələrindən nümunə götürməyə səsləyir. Xüsusilə də orada Vətən, torpaq, qeyrət, mərdlik və cəsurluq eşqi ilə Qarabağ savaşlarında və iki il əvvəl 44 günlük Vətən müharibəsində müzəffər qələbəmizin əldə olunmasında rayonumuzdan olan qəhrəman övladlarımızın, şəhidlərimizin döyüş yollarınının dönmədən əziz tutulması, xatırlanması, geniş təbliğ edilməsi sahəsində rayon rəhbərliyinin və ictimai təşkilatların keçirdiyi tədbirlərə geniş diqqət yetirilir. Deyərdim ki, kitabdakı bu ibrətamiz, tərbiyəvi, əhəmiyyətli səhifələri oxumaq, yadda saxlamaq gələcək nəslə həyat və ömür payında şübhəsiz necə, hansı yolla dastanlar yazmağı öyrədir.

Başa düşmək çətin deyil ki, son illərdə kitab yazıb nəşr etdirmək ağır əmək sayılsa da, Ələşrəf Niftiyev 77 yaşının ötməsinə baxmayaraq, bu yolda işini davam etdirir. O, ərsəyə gətirdiyi kitabları məktəblərə, kitabxanalara, fəal oxucularına tezliklə çatdırmağı vacib sayaraq hədiyyə etməyi özünə şərəf işi sayır. Axı müasir dünyada qlobal problemlər yarandığından maarifləndirmə, informasiya əlçatanlığının rolu daha da artmaqdadır. Məktəblilərin, yeniyetmə gənclərin, ohalinin səyi və iradəsi, gündəlik qayğıları cəmiyyət üçün layiqli vətəndaş tərbiyəsinə diqqəti və qayğıları gücləndirməyi hər kəsdən tələb edir. Əlbəttə, belə halda hərtərəfli hazırlıqlı müəllim və tərbiyəçi, həkim və tibb heyəti, mədəni-maarif işçiləri, sənət-peşə sahibləri və digər mütəxəssislər kamil biliyə və müasir texnologiyadan istifadə etməyə hazır olmalıdırlar. Bu hallarda vətənin keşiyində və müdafiəsində sayıq durar, hərbi biliklərə və vərdişlərə dərindən yiyələnər, gələcək nəsil güclü şəxsiyyətlər kimi cəmiyyətə daha çox fayda verər, xalqın xidmətində uğurlarımız daha çox olar. Ələşrəf müəllimin yuxarıda adını çəkdiyim nəsihətamiz əsəri başqa 14 kitabı kimi hamını bu vətənpərvər cağırışla daha fəal olmağa çağırır.

Bir anlığa onun keçdiyi həyat yolunu göstərən zəngin tərcümeyi-halına nəzər salaq;

Ələşrəf Niftiyev 1945-ci ildə Masallı şəhərində anadan olmuşdur. 1961-ci ildə 2 saylı orta məktəbi, 1963-cü ildə Lənkəran Pedaqoji texnikumunu, 1970-ci ildə qiyabi yolla M.F.Axundov adına Azərbaycan Xarici Dillər İnstitutunun rus dili fakültəsini bitirmişdir. Əvvəllər pedaqoji sahədə çalışmış, müxtəlif fəxri adlara və təltiflərə layiq görülmüşdür. 1968-1974-cü illərdə Rayon Komsomol Komitəsində təşkilat şöbəsinin müdiri və I katib vəzifələrində işləmişdir. İki il Rayon Partiya Komitəsində təşkilat-partiya işi şöbəsinə, 1976-1977-ci illərdə yerli «Çağırış» (indi «Yeni həyat») qəzetində şöbəyə rəhbərlik etmişdir. 1993-2009-cu illərdə 16 il Masallı RİH başçısının humanitar məsələlər üzrə müavini vəzifəsində çalışmışdır. Azərbaycan Respublikası Prezidentinin 22 iyun 2007-ci il tarixli sərəncamı ilə dövlət qulluğunda uzun müddət qüsursuz fəaliyyətinə və xidmətinə görə III dərəcəli «Vətənə xidmətə görə» ordeni ilə təltif edilmişdir. Bakı I Avropa Oyunlarının Masallı rayonunda məşəlləri kimi şərəfli missiyanın cərgəsində təntənəli paraddan keçmişdir. O, məktəb illərindən bədii yaradıcılığa maraq göstərmişdir. İndiyədək yüzlərlə metodiki və pedaqoji, elmi-publisistik və ictimai mövzularda müxtəlif çoxsahəli genişhəcmli yazıların, tərcümələrin, 2010-2022-ci illərdə «Elm və təhsil» nəşriyyatı tərəfindən buraxılmış *«Ömür yolu - nur yolu», «Oğul, bu Qurana and iç ki...», «Kiçiklərə, böyüklərə və hər kəsə», «Haqqın gücü», «Həyatımın həqiqətləri», «Hər kəs öz qədrini yaşar», «Vurtut bu dünyada bir ömrümüz var», «Seçilmiş hekayələr», «Uşaqlar üçün hekayələr», «Yaxşılığa qoyulmayıb tərəzi», «Gərək sevəsən, seviləsən və sevindirəsən», «Qisas qiyamətə qalmadı», «Mənə qəhrəman deməyin, əsl qəhrəmanlar şəhidlərdir», «Dastanlara dönəydi hər kəsin ömür yolu»* adlı kitabların və çoxlu böyük həcmli ədəbi yazıların, reylərin müəllifi və digər kitabların redaktoru olmuşdur. Rusiya, Ukrayna, Türkiyə və digər ölkələrin qəzet və jurnallarında onun məqalələri, kitablarına reylər və informasiyalar yer alıb. Ə.Niftiyev Azərbaycan Yazıçılar və Jurnalistlər Birliklərinin üzvü, «Qızıl qələm», H.B.Zərdabi, ilin laureatı media mükafatlarına layiq görülüb. Tanınmış şəxsiyyət Ələşrəf müəllim rayon Ağsaqqallar Şurasının sədri kimi nüfuzlu ictimai təşkilata 10 ilə yaxındır bacarıqla rəhbərlik edir.

İNSAN ZƏHMƏT İLƏ UCALIR

Ələşrəf Niftiyev rayonumuzda və regionda, Azərbaycanımızın çox guşəsində tanınan, sayılan ziyalı və ağsaqqal, xeyirxah insan, təcrübəli dövlət qulluqçusu olmuş, ədəbi mühitdə fərqlənən savadlı ədib kimi tanınır. Təsadüfi deyil ki, çoxlu təltifi, fəxri adları, orden və medalları, fərqləndirici nişanları, mükafatları sinəsini bəzəyir və bütün bu tərifli ifadələri təsdiq edir. Lakin açıq desək, onun üçün ən yaxşı mükafat insanların ona olan müsbət aurasıdır: Yaxından tanıyanların hərarətlə və bir az da məsuliyyətlə onu «Ələşrəf müəllim» deyə çağırması bu şəxsi bütün vəzifələrdə işlədiyi vaxtlardakı kimi sanki təqaüdə çıxandan sonra da insanlara kömək, qaldırılan məsələnin və problemin həllinə yönələn qanunları izah edib, məsləhət və tövsiyələrini vermək amacına, ən yüksək qiymətə layiq olduğunu bir daha sübut edir.

Belə savadlı, qayğıkeş insanla tanışlığım yaxın müddətdən başlasa da, elə bil coxdandır onunla oturub-dururam və xeyli faydalandığımı, həyat təcrübəsi, nümunə və savad, təşkilatçılıq və sərişdə vərdişlərinə yiyələnməyimi hiss edirəm.

1961-ci ildə məktəb partasında təkcə bir sinifdə onunla birgə oxuyanlardan filologiya elmləri doktoru, professor, dilşünas, yazıçı və tərcüməçi ABŞ-nin Virciniya ştatının fəxri vətəndaşı olmuş Zeydulla Ağayev, rayon komsomol komitəsinin I katibi işləmiş Ağadədə Quliyev, rayon soveti İcraiyyə Komitəsinin sədri olmuş Ağasəf Əliyev, həmin idarəetmə strukturunun müavini vəzifəsində çalışmış Fail Mirzəyev, Şuşada, Kürdəmirdə hərbi komissar olmuş, son iş yeri Daxili Qoşunların Baş Komandan müavini işləyərək erkən cağında dünyasını dəyişmiş Bahadur Məmmədov, Kənd Təsərrüfatı nazirliyində baş mütəxəssis olmuş Aydın Məmmədov, pedaqoji təhsillilərdən Zakir, Daxil, Arif, Sədrəddin, Məmmədağa, Mustafa, Gülşən, Tahirə, Rizvan, komsomolun birinci katibi, partiya komitəsində təşkilat şöbə müdiri, yerli qəzetdə şöbə müdiri, icra başçısının müavini işləmiş və təqaüdə çıxmış, yazımın qəhrəmanı Ələşrəf Niftiyev, Masallı və Mingəçevirdə GEM-də həkim və direktor işləmiş Hüseynağa Alışov, tanınmış idman xadimi, son illərdə məsul vəzifələrdə çalışmış Rafiq Rəsulov, habelə orta ixtisas təhsilli mütəxəssislərdən Ramiz, Tofiq Zamanov, Püstə və başqaları, adını sonadək çəkmədiyimiz bir neçə nəfər sıravi işlərdə çalışmış, o vaxtlar orta məktəbdə aldıqları dərin bilik və hazırlıq keyfiyyətlərini həyatda da doğrultmuşlar. Əfsus ki, onların əksəri ilə son illərdə vaxtaşırı məzun yubileylərimizi birlikdə qeyd etsək də, lap yaxın zamanlarda çoxu dünyalarını dəyişiblər.

Allah rəhmət eləsin!

İndi Ələşrəf müəllim üçün keçmiş barədə xatirələrini yada salıb yazılarına əlavə etmək qalır. Bəli, həqiqətən də o vaxtlar yüksək təlim-tərbiyə prosesində şagirdlər özünüidarəetmə təşkilatlarında (onlar indi də var, hələ xeyli təkmilləşdirilib) həyata nisbətən yüksək fəallıq vərdişləri ilə hazırlanırdılar. Bilik faizi o vaxtlar 80-90% əldə olunurdu.

Yazımın baş obrazı Ələşrəf müəllim ailəsində və orta məktəbdə aldığı tərbiyə, qazandığı bilik və bacarığı öz əməksevərliyi, möhkəm iradə, fenomenal yaddaş və əzmkarlığı hesabına davam etdirib çalışmaqla idman, musiqi, ədəbiyyatı sevirdi. Təsəvvür edin ki, 1963-cü ildə 18 yaşlı Ələşrəf həmin il orta məktəblərdə buraxılış sinfi olacaq 11-ci sinfə direktorla daxil olarkən şagirdlər düşünüb ki, bu yeniyetmə elə onlarla birlikdə oxumağa gəlib. Altı yaşından birinci sinfə gedən, texnikumun II kursundan Maarif Nazirliyinin əmri ilə ciddi tələbat səbəbindən müəllimliyə başlamış Ələşrəfin əmək fəaliyyətində belə başlanğıc start götürmüşdür. O, həmyaşıdlarına həvəslə fənnini tədris edir, sinifdənkənar, məktəbdənkənar tədbirlərdə onlarla çiyin-çiyinə və birgə qarışıb-qaynayır, işlədiyi böyük yaşayış məntəqəsində də özü başda olmaqla ictimai həyatda şagirdlərinin də fəal iştirakına cəlb etməyi bacarır. Onun şagirdlərindən neçə-neçə alim, müəllim, həkim və s. ixtisas və peşə sahibi həyata pərvazlanıb və müxtəlif yerlərdə uğurla çalışır, müəllimlərini də unutmayırlar. Məsələn, öyrəndim ki, şagirdlərindən Həsənbala Sadıqov tarix elmləri doktoru, professor və H.B.Zərdabi adına Pedaqoji İnstitutun rektoru vəzifəsinə qədər yüksəlib. Habil Tağıyev «VAZ» sahmdar cəmiyyətində prezidentin müavini olub, Ağahüseyn Ağayev Qaradağ rayon İH başçısının müavini işləyib. Bəhmən, Malik və digər bir neçəsi tikintidə mühəndis və idarə müdiri, Ədalət Nəmətov Təhsil Şöbəsinin müdiri, Rəzzaq Novruzov raykomda təşkilat şöbə müdiri, Əli Bayramov və Zakir Nuriyev müstəntiq və sonralar prokuror işləmişlər. Köhnə şagirdləri məsul vəzifələrə irəli çəkildi.

Ancaq

SƏN YAZDIĞINI YAZ...

Qəhrəmanımızın harada işlədiklərini yazımın əvvəlində sadaladım. Lakin perspektivdə inkişafının daha yuxarı vəzifələrə təqdim olunması və namizəd göstərilməsi ərəfəsində bir qrup satqın, yaltaq, sözgəzdirən və onun yerinə hazırlaşan I katibin əlalıtlarından bu gənc kadra qarşı rayon rəhbərinə yalandan «donos» ötürməklə onun tabeçiliyində işləyən nanəcib və şantajçılara qulaq asaraq rayonun partiya funksionerı altdan-altdan özü haqqında yuxarı orqanlara anonim şikayətlər yazdırır, hər dəfə Ələşrəfin işlədiyi təşkilatlarda yazı nümunələrini xəlvəti əldə edib peşəkar anonimşiklərə ötürərək bu əməlini sürətləndirir. Özünün əvvəldən MK-da işləməsi ilə əlaqədar əhatəsində olanlardan xahiş edir ki, o məktubları məhz rəhbərin özünə - rayona qaytarsınlar.

O, gənc və bacarıqlı kadr Ələşrəfin iş fəaliyyətində başqa səbəblər tapmadığından, onun dikbaşlığına, sərrast fikirlərinə və cavablarına, müstəqil və işin xeyrinə kifayət qədər bələd olduğundan onu iclas və yığıncaqlarda, müşavirələrdə aşağılamağa çalışır, haqsız replikalar atır, başçılıq etdiyi şöbəyə aid olmayan iradlar tapmağa çalışır. Nəhayət tapır: MK-ya göndərilən ayrı-ayrı uydurma şəxslərin imzası ilə yazılmış məktubları və şikayətləri bir yerə toplayıb xəlvəti ümumi şöbənin müdirini qeyri-iş günü olan şənbə günündə evindən çağırtdırıb onun xəttilə əlyazma şəklində (makinada yazanlar və digərlərinin xəbəri olmasın deyə) əl ilə onu qeydə alıb, şəxsən özü aparıb prokurora təcili çatdırılmasını əmr edir. Bu əməliyyatların heç birindən xəbəri olmayan köməksiz şöbə müdiri bir gün birinci katibin əmrı ilə Rayon İcraiyyə Komitəsinin sədri və prokurorla birlikdə Ələşrəfi yanına çağırtdırır və təkid edir ki, yaxşı olar ki, boynuna alsın, haqqında yazılanları o yazıb və ona görə yüngül cəza ilə canını qurtarsın. Özünü cəsarətlə aparan və belə əməldən xəbəri olmayan, belə işlərə qarşı həmişə mübarizə apardığından Ələşrəf tələb edir ki, məktubdakı imzalarla, hara daxil olub-çıxması qeydiyyatını özündə yazıb-götürməyə icazə versinlər. Birinci katib isə cavabında: - Boynuna almırsansa, get prokurluqda bunlarla tanış olarsan, cinayət işi qaldırılacaq. Bundan sonra yanıma nur ki, məktubların mətnlərində göstərilən heç bir hərf oxşarlığı müəyyən olunmadı və məktubun mozmununa görə də burada cinayət tərkibi yoxdur və işə xitam verilməlidir. Belə məzmunda yazılmış nəticəyə Azərbaycan Respublikasının Ali Məhkəməsində baxılır və təqsiri olmayan günahsuz Ələşrəf Niftiyev tam bəraət almaqla Sov.İKP sıralarına bərpa olunur, işdən azad edildiyinə görə buraxılmış müddət üçün dövlətdən ona təzminat pulu da ödənilir.

Ələşrəf Niftiyev 16 il sıravi müəllim işlədikdən sonra ulu öndər Heydər Əliyev 1993-cü ildə xalqın təkidli müraciətləri və xahişi ilə Respublika rəhbərliyinə qayıtdıqdan sonra haqqını tələb edərək birbaşa İHB-nin müavini təyin edilir. Ələşrəf müəllim isə istedadını, həyatda və vəzifələrdə qazandığı, beynində uzun müddət vaxt məhdudiyyətindən saxladığı olayları, cəmiyyətdə və həyatda gördüklərini buradan təqaüdə çıxdıqdan sonra qələmə almağa başlayıb, ədəbi fəaliyyətlə məşğul olmaqla ictimai işlərə mənəvi borcunu da səliqə-səhmanla yerinə yetirməyə çalışır.

İbrahim Şükürov,
Azərbaycan Jurnalistlər Birliyinin üzvü